# Nizami Gəncəvinin heykəlləri



Heykəltəraş Fuad Əbdürəhmanovun, memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynovun əsəri. 1946-cı ildə Gəncədə ucaldılmışdır. 2009-cu ildə bərpa edilmiş, mərmər postament bürünclə əvəz olunmuşdur.

***



1949-cu ildə Bakıda Nizami Gəncəvinin heykəlinin təntənəli açılışı baş tutdu. Mərasimdə respublika Nazirlər Sovetinin sədr müavini Mirzə İbrahimov, Elmlər Akademiyasının prezidenti Yusif Məmmədəliyev, şair Səməd Vurğu və digərləri iştirak etdi.




Bürünc heykəlin uzunluğu 6 metr, çəkisi yeddi tondur. Heykəlin yer aldığı kürsü 9 metr hündürlüyündədi, müəllifləri F. Əbdürrəhmanov, S. Dadaşov, M. Useynovdur. Heykəlin üzərində Nizaminin "Xəmsə"sinin qəhrəmanlarının təsvir olunudğu 7 barelyef yer alıb.

Sumqayıtda Nizami meydanının mərkəzində Nizami Gəncəvinin abidəsi ucaldılmışdır. 3,9 metr hündürlüyə malik tunc heykəlin müəllifi tanınmış heykəltəraş İsa Məmmədxanovdur.

**Dahi Azərbaycan şairi Nizami Gəncəvi Şərq poeziyasının görkəmli nümayəndəsi olmaqla yanaşı, Qərbdə də çox populyardır. Onun “Xəmsə”si dünyanın bir çox dillərinə tərcümə olunub. Nizami Gəncəvinin heykəl və büstləri vətəni Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrində də qoyulub.**

## Sankt-Peterburq




Nizami Gəncəvinin heykəli (rus. Памятник Низами Гянджеви) - görkəmli Azərbaycan şairi, farsdilli Azərbaycan poeziyasının klassiki Nizami Gəncəvinin Sankt-Peterburq şəhərinin Kamenno-ostrovski prospektində 25 və 27-ci binalar arasında yerləşən bağçadakı heykəli.

Heykəltəraşlıq əsəri Bakıda hazırlanıb və Sankt-Peterburq şəhərinin 300 illiyinə Azərbaycanın hədiyyəsi kimi göndərilib.

## İtaliya-Roma




Heykəl İtaliyanın paytaxtı, 2012-ci il aprelin 20-də Roma şəhərində Villa Borghese parkında, Viale Madame Leticia ərazisində yerləşir. Abidənin müəllifləri Azərbaycan Respublikasının xalq rəssamı Salxab Məmmədov və heykəltəraş Əli İbadullayevdir. Layihə, Roma şəhərın Hökumətinin tarix və incəsənət üzrə komissiya tərəfindən təsdiqlənmişdi.

## Kişinyov, Moldova



Nizami Gəncəvinin Moldovanın paytaxtı Kişinyov şəhərində 2005-ci ildə qoyulmuş heykəli. Abidənin heykəltəraşı Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Akif Əsgərov, memarı isə Moldovanın əməkdar memarı Semyon Şoyxetdir. Abidənin açılış mərasimi 2005-ci ildə Azərbaycan prezidenti İlham Əliyevin Moldovaya rəsmi səfəri çərçivəsində baş tutmuşdur. Abidənin qoyulması fikri Vüqar Novruzovun rəhbərlik etdiyi Moldova Azərbaycanlıları Konqresinə məxsusdur.

12 noyabr 2012-ci ildə isə heykəl və yaxınlıqdakı ərazilər əsaslı yenidənqurma və bərpadan sonra Nizami Gəncəvinin adını daşıyan parkın açılışı da olub.

**Nizami Gəncəvinin Dərbənddəki heykəli**






**Daşkənd, Özbəkistan**




Nizami Gəncəvi irsi özbək klassik ədəbiyyatına da mühüm təsir göstərib. Şairin bədii irsindən təsirlənərək özbək ədibləri maraqlı əsərlər yaradıblar. Nizami Gəncəvi dühasına, keçmişdə olduğu kimi, bu gün də Özbəkistanda böyük sevgi və ehtiram var. Bu ehtiramın ifadəsidir ki, dahi şairə qoyulan abidələrdən biri də paytaxt Daşkənddədir. 2004-cü il martın 23-də Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və İslam Kərimovun iştirakı ilə Nizaminin büstünün açılışı olub. Abidə söz ustadının adını daşıyan Daşkənd Dövlət Pedaqoji Universitetinin qarşısındakı meydanda yerləşir. Dahi şairin büstü tanınmış özbək heykəltəraşı İlham Cabbarov tərəfindən hazırlanıb.

**Moskva, Rusiya**



Dahi şairin daha bir heykəli Rusiya paytaxtı Moskvada yerləşir. Azərbaycan səfirliyi yaxınlığında yerləşən heykəl 1991-ci ildə açılıb

## Pekin, Çin



Nizami Gəncəvinin Çində də heykəli var. 2012-ci il dekbarın 6-da paytaxt Pekinin Çayanq parkında şairin heykəlinin açılış mərasimi baş tutub.